*Bakı Dövlət Universiteti Filologiya fakültəsi*

*Azərbaycan dili və ədəbiyyatı müəllimliyi*

*IV kurs 091-ci qrup tələbəsi*

*Əzimova Zeynəb*

**“Yaxşı müəllim əsl inqilabçıdır”**

Həyatda insanın dörd müəllimi olur – valideynləri, müəllimləri, şəxsi təcrübələri və təbiət. Onlardan biri körpəlikdə, biri uşaqlıqda, biri gənclikdə, biri də qocalıqda müəllimlik edir. İnsan dünyaya göz açdığı gündən başlayaraq inkişaf edir. Bu, təkcə fiziki inkişaf deyil, həm də ruhi inkişafdır. Təəssüflər olsun ki, bəzi ailələrdə uşaqların maddi ehtiyacları qarşılanır, amma mənəvi cəhətdən uşaqları düzgün yetişdirə bilmirlər. İbn Haldunun belə bir sözünü xatırlatmaq istəyirəm: “Uşaqlarınızı tərbiyə etməyin. Çünki onlar sizə bənzəyəcəklər. Özünüzü tərbiyə edir”. Təbii ki, mənəvi cəhətdən yetişməmiş bir insan düzgün ruhi tərbiyə verə bilməz. Məsələn, uşaq yalan eşitsə, o da yalan danışacaq. Şiddət görsə, o da şiddətə baş vuracaq. Lakin hər bir uşaq daha çox sevgi görmək istəyir. Valideynlərinin onlara vaxt ayırmasını, onlarla oyunlar oynamasını, nağıllar danışmasını. Buna görə də ilk müəllimlərimiz olan valideynlərin mənəvi cəhətdən inkişaf etməsi uşaqların həyatında çox böyük bir töhfədir.

Nikolay Qoqol deyir ki, şəxsiyyəti valideyn, ruhu isə müəllim tərbiyə edir. Ralf Uold Emerson isə belə deyir: “Yaxşı müəllim daha çox faktları çatdıran yox, varlığı ilə bizi fərqli insanlara çevirən şəxsdir”. Müəllimin işi təkcə bilik vermək deyil. O, ilk olaraq uşaqları sevməlidir. Uşaqlar arasında tənbəl, çalışqan, səs-küy salan şagird və s. kimi fərqlər qoymamalıdır. Uşaqların mənəvi tərbiyəsinə, ruhunun inkişaf etdirilməsinə çalışmalıdır. Onları mərhəmətli, yardımsevər, təvazökar insanlar kimi yetişdirməlidir. Unutmaq olmaz ki, pis uşaq yoxdur. Onlara təsir edən valideynlər, müəllimlər, ətraf mühitdir.

Sadəcə, elmi bilik vermək cəmiyyəti inkişaf etdirmək deyil, bəlkə də, cəmiyyətə ən ağır zərbəni vurmaqdır. Çünki silahları, bombaları kəşf edənlər, müharibə törədənlər də bir zamanlar şagird olmuş, daha sonra çox oxuyub alim olmuşlar. Bu insanları bu hala gətirənlər öz şəxsi mənfəətləri üçün yaşayan, hətta onlara şiddət göstərən valideynlər və müəllimlərdir. Görkəmli pedaqoq akademik Şalva Amonaşvili deyir: “Müasir texnologiyalar mənəviyyatsız adamların əlində təhlükəli silaha çevrilir”

Adolf Disterveq deyir ki, pis müəllim şagirdinə həqiqəti çatdırır, yaxşı müəllim isə onu tapmağı öyrədir. Təlim zamanı müəllim təkcə hazır bilikləri ötürməli deyil. Şagirdləri kəşfiyyatçı kimi yetişdirməlidir. Kitab sözlərini əzbər deyən yox, öz sözlərini deyən insanlar hazırlamalıdır. Onlarda bir-birilərinin fikirlərinə hörmət, bir-birilərinə əməkdaşlıq hissi aşılanmalıdır. Məsələn, fənn biologiyadırsa, təkcə təbiət, heyvanlar haqqında öyrətməklə məhdudlaşmamalı, heyvanlara və təbiətə sevgi, onları qoruma hissi aşılanmalıdır. Fənn musiqi, rəsmdirsə, musiqiləri canlı dinlətmək, bəzən sərgilərə aparıb rəsm əsərləri ilə tanış etmək, şagirdlərin estetik zövqünü inkişaf etdirmək lazımdır. Fənn Azərbaycan dilidirsə, dilə sevgi aşılamazdan öncə, dil daşıyanlara sevgi aşılanmalıdır. O zaman fikir, düşüncə gözəl olur, fikir gözəldirsə, onun dildə ifadəsi də gözəl olacaq.

Marva Collins belə deyir “Müəllimliyin mahiyyəti öyrənməni cəlbedici etmək, bu fikrin başqa bir fikrə təsiri ilə qığılcım effekti yaratmaqdır”

*Bakı Dövlət Universiteti Filologiya fakültəsi*

*Azərbaycan dili və ədəbiyyatı müəllimliyi*

*IV kurs 091-ci qrup tələbəsi*

*Məhərrəmova Sona*

## “Yolumuzu aydınladan işıq”

Zaman-zaman müəllim haqqında müdrik sözlər, gözəl kəlamlar deyənlər çox olmuşdur. Platon deyirdi: "Müəllimlik hər şeydən əvvəl bir tanrı sənətidir”. Makedoniyalı İsgəndər öz müəllimi Aristotel haqqında söyləmişdir: "Valideynlərim məni göydən yerə endirdi, müəllimim isə yerdən göyə qaldırdı”. Məhəmməd Peyğəmbər bilik öyrətməyi hər cür ibadətdən üstün sayır, Həzrəti Əli isə “mənə bir hərf öyrədənin qulu olmağa hazıram” deyirdi. Nizami Gəncəvi müəllimi günəşə bənzədirdi. L.N.Tolstoya görə öz işini sevən müəllim yaxşı müəllimdir, bununla yanaşı uşaqları və fənnini sevən müəllim əla müəllimdir. Daha kimlər, kimlər…

Ulu öndərimiz də müəllimə həmişə yüksək qiymət vermiş, müəllim haqqında gözəl sözlər söyləmişdir. Onun müəllim haqqında dediyi "müəllim yeganə şəxsiyyətdir ki, cəmiyyət özünün gələcəyini - uşaqların tərbiyəsini yalniz ona etibar edir” fikri müəllimə verilmiş ən gözəl tərifdir. Doğrudan da, cəmiyyətin qurucusunu, onu idarə edənləri, fəhləni, mühəndisi, baytarı, alimi, həkimi və s. – hər kəsi tərbiyə edən müəllimdir. Buna görə də müəllimlik çətin, məsuliyyətli peşədir.

Müəllim kimdir? Müəllim necə olmalıdır?

Müəllim şagirdlərinin yaxın dostu, sirdaşı, qayğıkeşi, düşünəni, onların bu günü və gələcəyi üçün narahat olanı, addımlarını düzgün atmaları naminə yolgöstərəni, bələdçisidir. Müəllim təkcə özünün deyil, həm də hər bir şagirdinin taleyini yaşayır-sevinci, kədəri, problemləri ilə birgə. Müəllim yalnız sinifdə olduğu 45 dəqiqəni yox, bütün ömrünü şagirdləri ilə paylaşır. Müəllim gözünün nurunu, qəlbinin odunu, ürəyinin sevgisini, illərinin zəhmətini şagirdlərinə verir.

Gördüyünüz kimi, müəllimlərə saysız-hesabsız gözəl kəlamlar, sözlər deyilib.

Danılmaz bir həqiqətdir ki, müəllimlik ən şərəfli peşələrdən biridir. Bəs bütün müəllimlər bu adı layiqincə daşıya bilirlərmi? Hər kəs ağlından müəllimlərini keçirməyə başladı və hansının yaxşı, hansının pis olduğunu düşündü. Məncə, müəllimin yaxşı və ya pisi olmamalıdır. Müəllim hər zaman

üçün bir kompas kimi şagirdinə yol göstərən, bir lampa kimi daim onun yolunu işıqlandıran şəxs olmalıdır.

Müəllim haqqında təkcə şeirlər, kəlamlar yazılıb deyilməmişdir. Eyni zamanda müəllim-şagird münasibətlərinə aid fimlər də çəkilmişdir. Bunlardan birini sizə tanıtmaq istəyirəm. Məşhur Əmir Hüseyn Xan( Amir Xan) Hindistan kinosunun ən böyük ulduzlarından biri olaraq qəbul edilən aktyor, eyni zamanda prodüser, rejissor və ssenarist kimi də məşhurdur. Onun "Yerdəki ulduzlar" adlı məşhur bir filmi vardır. Burada heç kəsin rəğbətini qazana bilməyən, ailəsi tərəfindən digər uşaqlar kimi olmağa məcbur edilən İşan... Onu heç kim başa düşmür. Onun oxuya bilməməsini hər kəs tənbəllik olaraq anlayır və yalnız onu danlayır. Ancaq onu anlayan və qəlbinin dərinliklərinə enə bilən müəllimi İşanın əsl gözəl keyfiyyətlərini üzə çıxara bilir. Düşünün, sizə o qədər tənbəl, qabiliyyətsiz deyirlər ki, bunu eşidən dostlarınız sizi hər dəfəsində məsxərəyə qoyur və siz artıq yalnızlaşırsınız. Və bir müəllim sizin həyatınızı dəyişir.

Kim belə müəllim istəməz ki?.. Siz elə zənn edirsiniz ki, uşaqların qəlbinə enib onları sevindirsəniz, onlar bu sevgini suistifadə edəcəklər?! Yox, əziz müəllimlər, yanılırsınız. Çünki heç bir uşaq böyüklər kimi düşünmür. Çünki onlar hələ çox saf və təmizdirlər. Onların belə qalması isə bizim əlimizdədir. Buna görə gəlin şagirdlərimizin səsinə səs verək: "Bəli, biz sizi alicənab və nəcib bir insan olmağa hər zaman ruhlandıracayıq, çünki siz biz müəllimlərinizi təqlid edəcəksiniz".

*Bakı Dövlət Universiteti Filologiya fakültəsi*

*Azərbaycan dili və ədəbiyyatı müəllimliyi*

*IV kurs 093-cü qrup tələbəsi*

*Quliyeva Dünya*

**Müəllim o kəs deyil ki öyrədir...**

Azərbaycan ədəbiyyatında xüsusi yer tutan Mehdi Hüseyn məqalələrinin birində belə bir fikir irəli sürür: "XIX əsrdə Azərbaycan ədəbiyyatı meydanında yüzlərlə şair olub. Onların da çoxu tamamilə unudulub. Bunda xalqı taqsırlandırmaq olmaz. Xalqımız gözəl şairləri sevməyi bacarır". Mehdi Hüseynin bu fikrinə şərik çıxaraq, əlavə etmək olar ki, bu fikir ancaq şairlərə deyil, bütün insanlara, ən əsası da müəllimlərə şamil olunmalıdır. Həyatımızda müəllimlərin rolu böyükdür. Həyatımızın bir çox ilini onların əhatəsində keçiririk. Şagirdlərin şəxsiyyət kimi formalaşmasında tərəddüd etmədən demək olar ki, müəllimlərin rolu valideynlərin rolu qədərdir. İstər orta, istərsə də ali məktəbdə neçə-neçə müəllimlə tanış olduq. Amma Mehdi Hüseynin də dediyi kimi onların hamısı bizim yaddaşımıza həkk olunmayıb. Biz yaddaşımızda müəllimləri "ən yaxşı", "ən pis" deyə iki qrupa bölmüşük. Müəllim əslində heç nə öyrətmir, biz müəllimlərdən öyrənirik. Çünki heç bir pis müəllim sinif otağına və ya auditoriyaya daxil olub şagird və tələbələrə "ədalətsiz olun", "rüşvət alın", "vicdanınızi itirin" kimi ideyalar təlqin etmir. Amma biz həmin müəllimin timsalında bir insana, bir müəllimə aid mənfi xüsusiyyətləri görüb ondan nəticə çıxarırıq, əgər bu keyfiyyətlərdən biri bizdə varsa, onu düzəltməyə çalışırıq. Deməli, biz müəllimdən öyrəndik. Bəzən belə müəllimlərlə qarşılaşanda içimizdə qeyri-ixtiyarı olaraq neqativ hisslər oyansa da, məncə onlara da təşəkkür etmək lazımdır ki, onlara baxıb yaxşının qiymətini anladıq. Yaxşı müəllim isə təhsil verir, öyrədir, şagirdlər tərbiyəni ondan alırlar. Əgər müəllim dürüstlüyü, ədaləti, vicdanı, mərhəməti, qayğıkeşliyi və s. kimi tərbiyəvi cəhətləri özündə birləşdirərsə, onun yetişdirdiyi nəsillərin pis olma ehtimalı çox azdır, demək olar ki, yoxdur. Bu gün cinayət törədən insanların doxsan faizinin əsasında şagird vaxtı müəllimlədən kifayət qədər diqqət və tərbiyə görməməsi dayanır. Mustafa Kamal Atatürkün dediyi kimi bütün insanlar müəllimlərin əsəridir. Platon isə deyirdi ki, yaxşı vətəndaş yetişdirmək üçün savaddan çox uşaqların əxlaqi baxımdan yetişməsinin qayğısına qalmaq lazımdır. Çünki tərbiyə olmayan yerdə təhsildən söhbət gedə bilməz.

Müəllim o kəs deyil ki, öyrədir, yəni hər öyrədən də müəllim hesab olunmur. Bəzən professsor dərəcəsinə layiq görülən müəllimlər belə öz

tələbələrinə bilik verməkdə acizdirlər, ya da hədsiz dərəcədə savadlı, mükəmməl dərs öyrədən müəllim insani keyfiyyətlərdən məhrumdursa, onu müəllim hesab etmək olmaz. İnsanlar onların həyatında iz qoyan şəxsləri heç vaxt unutmur. Məsələn, yaşlı nəsillər unutqan olduqları halda öz məktəb xatirələrini, ən əsası da müəllimlərini yenicə baş vermiş hadisə kimi xatırlayırlar. Ona görə də müəllimlər çalışmalıdır ki, şagirdlərin yaddaşında yaxşı xatirələrlə həkk olunsunlar. Onlara gəlir mənbəyi kimi deyil, şəxsiyyət kimi yanaşsalar, cəmiyyətimiz uçuruma doğru getməz. Müəllim unutmamalıdır ki, məktəb onun üçün sadəcə iş yeri deyil, burada müəllim neçə-neçə nəsillər yetişdirir, buna görə də o,  sadəcə hər hansı fənləri tədris edən yox, tərbiyə verən, pedaqoq, psixoloq olmağı bacarmalıdır.

Mən filologiya fakültəsinin 4-cü kurs tələbəsiyəm. Qısa müddətdən sonra müəllim kimi fəaliyyət göstərəcəm. Bir müəllim kimi ən böyük arzum o olar ki, şagirdlərimin böyük qismi istər savadımı, istərsə də mənəvi keyfiyyətlərimi özlərinə örnək götürsünlər və “gələcəkdə biz də həmin məllim üçün olacağıq” deyə qarşılarına məqsəd qoysunlar.

Bu gün bu auditoriyada gələcəyin müəllimləri əyləşir. Amma reallıq budur ki, müəyyən qismininiz hansısa məcburiyyətə görə bu ixtisası seçmisiniz. Sizə tövsiyəm o olar ki, nə vaxt müəllim kimi fəaliyyət göstərsəniz, sinif otağına daxil olmamışdan əvvəl Heydər Əliyevin bu cümləsini yadınıza salın: “cəmiyyət öz gələcəyini yalnız müəllimlərə əmanət edir”. Siz vətənpərvər, gələcəyə ümidlə baxan, insanları sevməyi bacaran, əzmkar, mübariz, eyni zamanda savadlı şəxslər yetişdirməlisiniz. Unutmayın ki, həyat bumeranqdır. Əgər biz sağlam nəsil yetişdirməyi bacarsaq, onlar da bizim üçün xoşbəxt cəmiyyət yaradacaqlar.

*Bakı Dövlət Universiteti Filologiya fakültəsi*

*Azərbaycan dili və ədəbiyyatı müəllimliyi*

*IV kurs 091-ci qrup tələbəsi*

*İbrahimova Əfsanə*

## ŞAGİRD QƏLBİNİN TƏBİBİ

Dahi ədibimiz yalnız qələmə aldığı möhtəşəm əsərləri ilə deyil, eyni zamanda pedaqoji fikirləri ilə də tanınan Hüseyn Cavid söyləmişdir ki, bir millətin tərəqqi və tədənnisini bilmək için o millətin məktəblərini, daha doğrusu ibtidai məktəblərini görmək kifayət edər. Həqiqətən də belədir. Çünki gələcəyin, işıqlı sabahın qurucuları məhz ibtidai məktəblərdə yetişir. Həmin gələcəyi - uşaqları yetişdirən öncə valideynlər, sonra isə müəllimlər olur. Valideynlər tikintisinə təzə başlanılmış bir binanın təməlini atan bənna kimi uşaqların ilkin tərbiyəsi ilə məşğul olurlarsa, müəllimlər isə bir memar rolunu oynayır. O, gənc nəslin mənəvi aləmini inkişaf etdirir, onu bir şəxsiyyət kimi yetişdirir. Müəllimin uşağı kamil bir şəxsiyyət kimi yetişdirməsi üçün əvvəlcə onun özünün bir şəxsiyyət kimi formalaşması lazımdır. Müəllim özündə olmayanı şagirdinə verə bilməz. Odur ki, müəllim daim öz üzərində işləməli, dünyagörüşünü, mənəviyyatını inkişaf etdirməli, mənəvi göstəriciləri ilə şagirdlərə nümunə olmalıdır. Bu məqamda yenə Hüseyn Cavidin “Həsbi-hal” məqaləsinə müraciət etmək istəyirik. Ədib həmin məqalədə qeyd edirdi: “Bir müəllim öz-özünü bir riyazəti-mənəviyyə ilə islah etdikdən sonra, şübhəsiz ki, hər sözü, hər duruşu, hər halı bütün şagirdlər nəzərində böyük bir əhəmiyyətlə tələqqi olunur. Kəmali-sürət və mətanətlə hər kəsin ruhuna nüfuz edə bilir”.

Hələ XIII əsrdə yaşamış Şərqin böyük filosoflarından olan Nəsirəddin Tusi qeyd edirdi ki, insanı kamilliyə çatdırmaq məqsədi güdən sənət dünya sənətlərinin ən şərəflisi olmalıdır. Biz deyə bilərik ki, bu sənət elə müəllimlik sənəti, müəllimlik peşəsidir. Əsl müəllimin əsas vəzifəsi savadlı bir şəxs yox, hər şeydən öncə kamilliyə yönələn, humanist bir insan yetişdirməkdir. Bunun üçün də o, uşaqları öz ruhuna yönləndirməyi bacarmalı, onların mənəvi aləminin zənginləşməsinə kömək etməlidir. O, qəlbən pak olmalı, şagirdlərinin hər birinə fərdi yanaşmalı, sevgisi hər bir şagirdinə yetəcək qədər böyük ürək sahibi olmalıdır. Vaxtilə “yaxşı müəllim nə deməkdir?” sualına böyük pedaqoq V.A. Suxomlinski belə cavab verirdi: “O, ilk növbədə, uşaqları sevən insandır, onlarla ünsiyyətdən sevinc tapır, inanır ki, hər bir uşaq yaxşı insan ola bilər,

uşaqlarla dostluq etməyi bacarır, uşaqların qəlbini oxuyur və heç vaxt unutmur ki, özü də vaxtilə uşaq olub.”

Müəllimin sözlərinin, hər dediyinin şagirdin ruhuna nüfuz etməsi, onu tərbiyələndirməsi üçün müəllimin danışığı ilə davranışının üst-üstə düşməsi, başqa sözlə desək, söylədiklərinin onun ruhu və vicdanı ilə uzlaşması vacibdir. Yalnız bu zaman o, şagirdlərinin sevimlisi olar, onun qəlbən dediyi sözlər şagirdlərin ruhuna yol tapar. Şagird xeyirxah, alicənab, nəcib, mehriban bir müəllimin tərbiyəsilə humanist bir insana çevrilər. Şagirdin yaddaşı, qəlbi yazılmamış ağ kağız kimidir, ora nə yazılarsa, həmin kağız o yazını özündə hifz edər. Müəllim həmin kağıza xoş sözlər, nəsihətlər yazmağı bacarmalı, sözləri və sevgisi ilə şagird qəlbini fəth etməlidir. Bir bağban öz əziyyəti ilə bağçanı gül-çiçəyə qərq edən kimi, bir loğman bir xəstəni sağaldan kimi müəllim də hələ qönçə olan şagirdlərin tumurcuqlanıb qızılgül olmasına, gül-çiçək açmasına nail olmalı, şagird qəlbinin təbibi olmalıdır.

Təəssüf hissi ilə qeyd edirəm ki, məktəblərimizdə təhsilimizin səviyyəsi çox da ürəkaçan deyil. Avropa təhsilinə inteqrasiya etsək də, hələ də təhsil sahəsində bir çox nöqsanlar özünü göstərir. Bu nöqsanlardan biri və başlıcası müəllimlərin öz peşələrinə məsuliyyət hissi ilə yanaşmamalarıdır. Təbii ki, bunu hər müəllimə şamil etmək olmaz. Üzeyir Hacıbəyov bildirirdi ki, müəllimlik vəzifəsi çox çətin və ən məsuliyyətli bir vəzifədir. Hər adam onun öhdəsindən gələ bilməz və hər adama müəllim deyib, uşaqları ona tapşırmaq böyük xətadır. Ədibin də qeyd etdiyi kimi, hər bir şəxs müəllim ola bilməz. Müəllim gərək öz vəzifəsinin məsuliyyətini, çətinliyini, müqəddəsliyini dərk edə bilsin, gələcək nəslin cavabdehliyini çiyinləri üzərində daşımağı bacarsın. Əfsus ki, dövrümüzdə bəzi müəllimlər bunu dərk edə bilmirlər, onlar öz vəzifələrini yalnız maddiyyat xatirinə icra edirlər. Onları şagirdlərə bilik, savad öyrətmək, onları vətənə layiq bir vətəndaş, həyata hazır bir şəxs kimi yetişdirmək yox, ilk öncə öz cibləri düşündürür. Ancaq Karl Qustav Yunqun dediyi kimi, təhsilin məqsədi nəticə olaraq işləyib pul qazanmaq yox, təhsilin məqsədi həyatın özü olmalıdır.

*Bakı Dövlət Universiteti Filologiya fakültəsi*

*Azərbaycan dili və ədəbiyyatı müəllimliyi*

*IV kurs 093-cü qrup tələbəsi*

*Mursalıyeva Badam*

**"MƏNİM SEVİMLİ MÜƏLLİMİM"**

Hər kəsin həyatında mütləq iz qoyan müəllimi olmuşdur. Bu iz müxtəlif ola bilər. Bir müəllimi xoş münasibətinə görə, qayğısına görə, digər birini səsinə görə, başqa birini isə savadına görə və s. sevə bilərik. Əslində bu sevgi də bizim seçimimizlə əlaqədər olaraq yaranır, yəni müəllimdə olmasına ehtiyacımız olan bir xüsusiyyət görəndə özümüzü ona yaxın bilirik, hətta özümüzü sadəcə onun şagirdi hesab edirik. Axı, hər uşaq fərqlidir. Oxumağı, nə isə öyrənməyi çox sevən şagird olmuşam, lakin hər zaman dərslərimlə bağlı bir problemim olub ki, elmi kitab izahlarını anlaya bilmirdim: çox oxuyurdum, az mənimsəyirdim. Məncə, bu çox uşaqda belədir. Çox uşaq kimi mən də oxumağı sevsəm də, dərsə getməyi sevmirdim. Çünki hələ belə demək olarsa, idealım olan müəllimim olmamışdı. "Kim olmaq istəyirsən?" sualını verənlərə verəcək cavabım da yox idi. Amma bütün suallarıma cavab verən, mənə məktəbi sevdirən, elmi izahlarla yox, sadə dillə mənə elm öyrədən o əvəzolunmaz müəllimlərim oldu.

Xarici dil öyrənməyi çox istəsəm də, səkkizinci sinfə kimi heç düzgün öyrənə bilməmişdim. Amma sonra qızılı saçları olan, səsi də özü kimi gözəl olan bir müəllim gəldi. İngilis dilini öyrənməyin bu qədər asan olacağı ağlıma gəlməmişdi. Biz bunu təbiət olaraq, çiçəklər, güllər olaraq öyrəndik. Sözləri, cümlələri atalar sözü, lətifələrlə öyrəndik. Və bilirsiniz, mən ingiliscə çox gülməli lətifələr öyrəndim. Bu haqda çox danışa bilərəm, amma mənə elm öyrədən, qəlbimdə iz qoyan başqa bir müəllimdən danışmaq istəyirəm sizə...

Mən ədəbiyyatı sadəcə yazıçılar yazır, biz də əzbərləyirik deyə təsəvvür edirdim. Amma onun həyat olduğunu, ruha işlədiyini, sadəcə yazılardan ibarət olmadığını o qəlbi gözəl müəllimimdən öyrəndim. O, ədəbiyyatın nəzəri hissəsini bizə çox maraqlı və əyləncəli şəkildə öyrətdi. Necəmi? O bizlərdən, bəli, biz şagirdlərdən elə bədii portret, obraz, hətta bədii ifadə və təsvir vasitələri yaradırdı ki, bu çox əyləncəli və yadda qalan olurdu. Onun səsi ədəbiyyatın özü idi. Dərsdə şeiri və əsərlərdən parçaları elə oxuyardı ki, bitdiyi zaman təsirindən çıxs bilmirdim.. R.U.Emersonun "Yaxşı təhsilli olmağın əlaməti ali bilikləri sadə dillə deməyi bacarmaqdır" fikri bu baxımdan çox doğru deyildirmi sizcə də?!

Bir dəfə dərsə bir az tez gəlmişdim, hava çox soyuq idi. Sinfə keçməyi fikirləşdim. Çünki müəllimin hələ gələcəyini və sinifdə olacağını düşünməmişdim. Amma içəridə idi...Çox təəccübləndim: ayağında uzun çəkmə var idi, əlində ayaqqabıları... Mənə biraz gülməli göründü, axı onu həmişə çox səliqəli geyimdə görmüşdüm... Sonra məlum oldu ki, müəllimimiz çox uzaqdan gəlirmiş, yol qış vaxtı pis olduğundan üst-başını məktəbdə səliqəyə salarmış. Bunları təbii ki, özü deməmişdi.

Həmin gün mən müəllimdən, onu narahat edəcəyimi düşündüyümdən dərsdə də heçnə soruşmadım. Dərsin sonunda - zəng vurulanda sinif yoldaşım zəng vurulduğu üçün - müəllimin dərsi bitdiyi üçün pis olduğunu dedi. Daha sonra bütün sinif bir ağızdan bunu təsdiqlədi və müəllimi çox sevdiklərini dedilər. Mən hələ də utandığımdan susmuşdum, utanaraq başımı yellədim. Uşaqlar elə deyəndə müəllimin üzündə elə bir təbəssüm yarandı ki, təbəssümü ilə əməyinin qarşılığını ala bildiyini və çəkdiyi zəhmətdən məmnun olduğunu deyirdi. Mənə baxışında da onu gördüm və hiss etdim ki, bu ucqar kənddə dərs demək çətin olsa da, o xoşbəxtdir. O gözəl insan mənə sadəcə elm öyrətmədi, əməyin qarşlığının həmişə olduğunu öyrətdi, ümid etməyi öyrətdi. Ən əsası, məndə mənim də müəllim ola biləcəyimi inam yaratdı.

O qədər dəyərli bir insan idi ki... Hər bayram bütün şagirdlərin ailəsini ziyarət edən, hər şagirdilə xüsusilə maraqlanan və bunları qarşılıqsız edən yeganə insan... Bununla bağlı kiçik bir xatirəmi bölüşmək istəyirəm. Ramazan bayramına bizlərdə xüsusi hazırlıq olur. Evin böyük qapısı da təmizlənir, bayram günü səhər tezdən darvazanı yumaq üçün su dolu qab və parça götürüb qapıya getdim, bayram günü hər kəs səliqəli geyinərdi. Təmizliyə görə mənim üst başım səliqəli deyildi. Birdən darvazada tıkkıltı səsi gəldi, əvvəlcə əhəmiyyət vermədim. Dedim, hələ bayramlaşmağa gələn olmaz. Qapıda müəllimimi görəndə həm təəccübləndim, həm də çox utandım üst başımdan. O isə gülüb dedi ki, burada nə var ki, əməklə məşğulsan. Əllərimi yuyub salamlamaq istədim. Müəllim dedi ki, əməklə məşğul olmaqdan belə çox utanırsanmış? Mən daha çox utandım, o isə əlavə etdi ki, mən çalışqan, oxuyan şagirdin əlindən çay içmək istəyirəm. Sonra çayını tez içib “hələ kəndin başında çox şagirdim var gediləsi,hə, Badam?” deyə mənə sual verdi. Mən də özümü tuta bilməyib “hər yerə getmisiz?” deyə təəccüblə soruşdum. O da gülərək, “heç şagirdsiz də bayram olar?” dedi.

*Bakı Dövlət Universiteti Filologiya fakültəsi*

*Azərbaycan dili və ədəbiyyatı müəllimliyi*

*IV kurs 093-cü qrup tələbəsi*

*Şirinova Samirə*

**“Müəllim özü işıq olmalıdır ki, başqalarının qəlbində qığılcım yarada bilsin”**

Kiçik məktəbli yaşlarında dərslərimdən geri qalanda, müəllimimdən gileylənəndə valideynlərim həmişə deyərdilər: "Biz müəllimdən çəkinərdik, harada görsəydik, ciddi görkəm alardıq. Biz uşaq vaxtı elə bilirdik ki, müəllim evinə getmir, su içmir, yemək yemir..."

Əslində, birinci sinfə başlayanda mən özüm də elə bilirdim ki, müəlliməm su içmir, yemək yemir, evinə getmir. Bunlar hamısı nədən irəli gəlirdi? Müəllim peşəsinin müqəddəsliyindən, şəxsiyyətinin ucalığından, ziyasının parlaqlığından...

Zaman keçdikcə bu tilsim dağılır, sən müəllimin də hamı kimi olduğunu anlayırsan. Bəxtiyar Vahabzadə şeirində yazır:

Mən indi bilmişəm, kimdir müəllim,
Onlar da su içər, yemək yeyərmiş.

Əslində, elə hər şey bundan sonra başlayır. Müəllimin öz işığını qoruyub saxlamasından. Bundan sonra artıq müəllim şagirdinin gözündə yeni bir tilsim yaratmalı, yeni bir dünya açmalıdır. Onu inandırmalıdır ki, müəllim, həqiqətən, müqəddəs varlıqdır. Onun işığından göz qamaşmalı, hər bir şagirdə o işıqdan bir qığılcım vermək üçün can atmalıdır. Müəllim bunları planlı şəkildə etməməlidir. O, artıq şəxsiyyət kimi elə formalaşmalıdır ki, bütün gözəl keyfiyyətlər onun xarakterinin mayasında olsun. Yəni əslində, müəllim heç nə etmədən sadəcə öz varlığı ilə, olduğu kimi gərək şagirdlərinə örnək olsun, onları sevsin və sevilsin.

Mən öz təhsil həyatımda bu cür müəllimlərlə rastlaşdığım üçün özümü, həqiqətən, çox şanslı hesab edirəm. Orta məktəbdə mənim xarakterimdə, dərsə yanaşmamda əsaslı dəyişikliyə səbəb olan, fənnini sevdirən Azərbaycan dili və ədəbiyyat müəllimimə bir ömür boyu minnətdar olacağam. Mən onun sayəsində müəllimliyin necə bir peşə olduğunu, sözün əsl

mənasında dərk etdim. Müəllimim mənim ruhuma sirayət etdi, məni içimdəki qaranlıqdan çıxartdı, oxumağa, sevməyə, yaratmağa ilhamlandırdı. Bütün bunlardan sonra mən artıq qərar verdim ki, müəllim peşəsi insan həyatında dəyişiklik yaratmaq, şəxsiyyət yaratmaq, vətəndaş yetişdirmək üçün ən mükəmməl peşədir. Mən müəllimim mənə pay verdiyi qığılcımı gələcəkdə öz şagirdlərimə vermək istəyirəm. Yaşadığım böyük xoşbəxtliyi öz şagirdlərimə də yaşatmaq istəyirəm.

Universitet həyatımda isə mən necə doğru qərar verdiyimi daha yaxşı anladım, yenə müəllimlərimi müşahidə elədim və çox şey öyrəndim. Həyat mənim qarşıma iki həqiqi müəllim daha çıxardı. Onlar içimdə olan qığılcımı daha da alovlandırdılar. Həqiqi müəllimləri şagirdləri, tələbələri həyatlarının mayakı, sönməz işığı hesab edirlər. Onların əməyinin qarşılığını ödəmək üçün öyrəndiklərini vicdanlı şəkildə yerinə yetirməyə can atırlar...

Müəllim özü işıq olmalıdır ki, şagirdlərinin qəlbində qığılcım yarada bilsin.

*Bakı Dövlət Universiteti Filologiya fakültəsi*

*Azərbaycan dili və ədəbiyyat müəllimliyi*

*IV kurs 091-ci qrup tələbəsi*

*Həsənli Rübabə*

**"Öyrənmək üçün yaşayırıq, yoxsa yaşamaq üçün öyrənirik?"**

Türkiyə türkcəsində belə bir ifadə var: "Öğrenme açlığı". Bu mənim ən sevdiğim ifadələrdən biridir. Yeni şeyler öyrənmək də yemək kimi əsas ehtiyaclardandır. Biliklər beynimizi, yeməklər mədəmizi doldurur. Biz həyatı dərk etmək üçün ətrafımızdakı informasiyalarla "qidalanmalıyıq". Yemək bioloji ehtiyac, biliyin qəbul olunması isə ideoloji ehtiyacdır. Öyrənmə prosesində nəzərə alınacaq məsələlər bunlar olmalıdır:

1.Öyrənmə sistemli şəkildə olmalıdır: Öyrənmə prosesi sadədən mürəkkəbə doğru, asandan çətinə doğru getməlidir. Yəni bu aşpazın səhər, qəlyanaltı, şam yeməyini vaxtında verməsinə bənzəyir.

2.Yaş və anlaq səviyyəsi nəzərə alınmalıdır: Bu müasir dövrdə ən diqqət çəkən məsələrdəndir. Mənim fikrimcə, aşağı siniflərdə oxuyan şagirdlərə ev tapşırığı verilməməlidir. Bunu körpələrə yalnız "ana südü verilməsi" ilə müqayisə etmək olar. Aşağı sinif şagirdləri məktəbdən xaric vaxtını dünyanı kəşf etməyə sərf etməlidirlər. Biz onlara ev tapşırığı verməklə kəşf etmə zamanını daraldır və tapşırıq etməkdən yorulan şagirdlərin kəşf etmə marağının qarşısını alırıq. Uşaqlar məktəbdə eşitdiklərini həyatda, ətrafda gördükdə və tətbiq etdikdə çox sevinəcəklər.

3.Nəyi öyrədəcəyinizi analiz edin: Aşpaz istifadə etdiyi ərzağın keyfiyyətinə, ölçüsünə, son istifadə tarixinə, kalorisinə diqqət edir. Əslində müəllim də informasiyalar üzərində eyni prosesi edir: verdiyi məlumatların uşağın zehni inkişafında yaxşı və pis təsir etdiyini, uşağı qane etməyəcək və beynində suallar buraxacaq qədər az, beynində dolaşıqlığa səbəb olacaq qədər də çox olmamasını, biliklərin faydalılığını - zərərini, verilən məlumatları qiymətləndirməyi bacarmalıdır. Aşpaz hazırladığı yeməyi təqdim etdiyi şəxsi nəzərə almazsa, həmin şəxsdə anormal hallar özünü göstərər. Müəllim öyrənəni də, öyrətdiyini də analiz etməzsə, şagirdlərin mənəvi dünyasında anormallıq özünü göstərər. Nüvə silahını, atom bombasını istehsal edənləri bir müəllim yetişdirmədimi?

4.Öyrənilənləri hissələrə parçalayın: Aşpaz yemək yeyən şəxsin önünə bir qazan yemək qoyur. Axı hamısını eyni anda yeyə bilməz və yemə prosesi bezdirici olacaq. Bunun üçün yemək parçalara bölünməlidir. Biliyin

qəbulu da belədir. Öyrətdiklərimizi parçalara ayırsaq, bilikləri daha rahat və sadə “həzm etdirmiş” olacağıq. “Kiçik şagirdlərin önünə böyük informasiyalar qoymaq” düzgün deyil.

5.Uşaqların yaradıcı olmasına şərait yaradaq. Həm sağ, həm sol beyin yarımkürələrini çalışdıraq: Bu halda ki, aşpazın təqdim etdiyi yeməklər fərqli olacaq, yeyən şəxs yediklərindən daha çox həzz alacaq. Müəllimin verdiyi biliklər nə qədər şagird beyninin fərqli tərəflərini çalışdırsa, öyrənmə prosesi o qədər maraqlı keçəcək.

6.Düzgün yolla öyrədək: “İş yeməyin fərqliliyi ilə bitmir, aşpazın doğru bişirmə texnikası önəmlidir. Hər yeməyi öz texnikasında bişirir”. Öyrədənin də doğru öyrətmə metodu olması vacibdir. Müəllimin üsul və vasitələri verəcəyi məlumatın daha yaxşı qavranılması və yadda qalması üçün şərait yaratmalıdır. Tez-tez eyni üsul və metodlara müraciət şagirdləri bezdirir.

7.Öyrənmə üçün zaman məsələsi vacibdir: Aşpaz yeməyi vaxtında bişirməsə, yemək ya çiy qalar, ya da yanar. Əslində biliyin ötürülmə müddəti də belədir. Müəllim gündəlik olaraq az vaxta informasiya verərsə, məlumatlar sistemi yarımçıq qalar, gündəlik olaraq uzun müddət dərs keçərsə, şagirdlərin beyni yorular və aldığı informasiyaları daha tez unudarlar. Dünya reytinq cədvəlində birinci olmuş Finlandiya təhsil sistemində gündəlik olaraq 4 saat dərs keçirilir. Bu isə həftəlik 20 saat edir. Josh Kaufmannın “20 saat qanunu”ndan Elon Musk,Mark Zukenberq istifadə edir. Bilik öyrənmə üçün ideal müddətdir.

Nəticəm budur ki: Yaxşı müəllimlər bizi “ac buraxmaz”, yaxşı müəllimin şagirdləri isə heç vaxt “doymayacaq”. İngilislərdə belə bir ifadə var: “Yemək üçün yaşayırıq, yoxsa yaşamaq üçün yeyirik?” Mən bunu belə dəyişmək istədim: “Öyrənmək üçün yaşayırıq, yoxsa yaşamaq üçün öyrənirik?”